# Minnətdarlıqlarını bildirirlər

Bu gün ölkədə insanların rifahı naminə Azərbaycan Prezidenti tərəfindən aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri, həyata keçirilən uğurlu layihələr sırasında yol infrastrukturunun inkişafı prioritet sahə hesab olunur.



Ölkə başçısının respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, ən ucqar dağ kəndlərinə belə yeni yolların çəkilməsi ilə bağlı imzaladığı çoxsaylı sərəncamlar bunun əyani sübutudur.

Bölgələrdə həyata keçirilən tikinti-quruculuq və turizm infrastrukturunun inkişafı sahəsində görülən işlərin fonunda Qəbələ rayonunda da bu istiqamətdə tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Belə ki, son illər rayonumuzda xeyli müasir yollar salınmış, mövcud yollar yenidən qurulmuş, yeni körpülər inşa olunmuş və bu sahədə görülən işlər sistemli şəkildə, ardıcıl olaraq uğurla davam etdirilir.

Rayonda görülən işlərin davamı kimi bu günlərdə səfalı təbiətə və zəngin maddi-tarixi irsə malik Vəndam qəsəbəsindəki "Yeddigözəl" şəlaləsinə də yeni asfalt yol çəkilmişdir.

Qeyd edək ki, rayonumuza gələn qonaqların və yerli sakinlərin daim üz tutduqları cəlbedici turizm məkanı olan "Yeddigözəl" şəlaləsinə ilin bütün fəsillərində gediş-gəliş çox çətin idi. Yerli sakinlər və turistlər yay aylarında tozdan, payız-qış aylarında isə palçıqdan əziyyət çəkirdilər.Vəndamlıların gözlədikləri yol problemi artıq həllini tapmış, qəsəbədə yüksək keyfiyyətli asfalt yol istifadəyə verilmişdir.

Görülən işlər Vəndam sakinləri tərəfindən razılıqla qarşılanmışdır. Onlar qəsəbədə yol infrastrukturunun yenidən qurulmasına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını ifadə etmişlər.

**"Qəbələ"**

# Qəbələ - 2500 yaşlı paytaxt şəhərimiz

***Miladdan əvvəl V-IV əsrlərdən başlayaraq əvvəlcə ölkənin iqtisadi və mədəni həyatında, daha sonra isə həm də siyasi həyatında çox mühüm rol oynayan, eramızın I əsrindən etibarən yazılı mənbələrdə adıçəkilən Qəbələ qədim Azərbaycan dövləti olan Albaniyanın ilk paytaxt şəhəri olub. Alban hökmdarlarının baş iqamətgahı orada yerləşib.***

I əsr müəllifi Böyük Pilininin "Təbii tarix" əsərində "Kabalaka", II əsr müəllifi Klavdi Ptolemeyin "Coğrafiya dərsliyi" əsərində "Xabala" kimi adı çəkilən Qəbələnin adı orta əsr mənbələrində də tez-tez xatırlanıb.

70 hektardan çox ərazini əhatə edən qədim Qəbələ şəhərinin qalıqları Qəbələ rayonunun Çuxur Qəbələ kəndi yaxınlığında yerləşir. Xatırladaq ki, qədim şəhər yeri Qala, Səlbir və Güllütala adı ilə bəlli olan üç əsas hissədən ibarətdir. Qaraçayla Qoçalan çayları arasında Antik Qəbələ adı ilə tanınan Güllütala ərazisində aparılmış uzunmüddətli arxeoloji və tədqiqatlar nəticəsində e. ə. IV əsrdən başlayaraq eramızın I əsrinin sonlarınadək intensiv şəhər həyatı olduğu sübuta yetirilmişdir. Şəhərin Səlbir adlanan hissəsində I-X əsrlərə, Qala ərazisində I-XVII əsrlərə aid bir neçə metr qalınlığında zəngin mədəni təbəqə olduğu müəyyən edilmişdir. Güllütala adlanan antik şəhər yerində həyat kəsildikdən sonra Səlbir və Qalada həyat başlanıb. X əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam edib.

1926-cı ildən başlayaraq Qəbələdə davamlı olaraq arxeoloji tədqiqatlar aparılır. 2009-cu ildən etibarən Azərbaycan arxeoloqları ilə yanaşı, Cənubi Koreya alimləri də Qəbələ tarixinin arxeoloji cəhətdən araşdırılmasında bilavasitə iştirak edirlər. Çoxillik və genişmiqyaslı tədqiqatlar nəticəsində qədim paytaxt şəhərinin tarixinin bir sıra çox mühüm istiqamətlərinə dair, o cümlədən Qəbələnin ən azı eramızdan əvvəl V əsrdən etibarən şəhər kimi mövcudluğunu təsdiqləyən zəngin tapıntılar əldə olunub. Bu tapıntılar Azərbaycanın qədim dövlətçilik tarixinin və şəhər mədəniyyəti ənənələrinin dərindən və hərtərəfli öyrənilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Qəbələnin yaşını və dövlətçilik tariximizdəki yerini müəyyənləşdirmək baxımından Antik Qəbələ adı ilə tanınan ərazidə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş bir neçə çox mühüm ictimai bina qalığını xüsusi olaraq qeyd etmək istərdik. Bunlardan birincisi, ötən əsrin 60-70-ci illərində aşkar olunan və sahəsi 587 kvadratmetr olan ictimai binanın qalıqlarıdır. Bünövrə hissəsi çay daşı, divarları çiy kərpiclə hörülmüş bu binanın üstü iri ölçülü saxsı kirəmitlərlə örtülüb. Xatırladaq ki, iri ölçülü saxsı kirəmitlərlə örtülən belə nəhəng ictimai bina o dövr üçün nəinki Cənubi Qafqaz, bütövlükdə Avrasiya məkanı üçün nadir tikinti hesab olunurdu.

Sonralar Antik Qəbələdə tədqiqatlar davam etdirilərkən daha bir neçə möhtəşəm tikili də aşkar olundu. Qədim Yunanıstandakı ippodromları, Roma anfiteatrları və Misirin İskəndəriyyə şəhərindəki məktəb binalarını xatırladan üç ədəd oval formalı nəhəng tikinti xüsusi olaraq böyük maraq doğurur. Məlumat üçün bildirək ki, hələlik nə Qafqazda, nə də Yaxın və Orta Şərqdə antik dövrə aid bunlara bənzər tikili qalıqları tapılmamışdır.

Antik Qəbələnin alt mədəni təbəqəsi öyrənilərkən orada e.ə. IV-III əsrlərə aid çox nəhəng ərzaq anbarının qalıqları aşkar olunub. Anbarda 200 ədəddən çox irihəcmli təsərrüfat küpü sıra ilə boğaz hissəyə qədər yerə basdırılmışdır. Tədqiqatçıların fikrincə, həmin küplərdə əvvəlcə çaxır, daha sonra qoz, fındıq və taxıl saxlanılmışdır. Buradan da belə nəticə hasil olur ki, qəbələlilər indi olduğu kimi, 2500 il bundan əvvəl də taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və şərabçılıqla məşğul olmuşlar. Maraqlıdır ki, Cənubi Qafqazın digər yerlərində hələlik buna bənzər abidə aşkar edilməyib. Belə nəhəng ərzaq anbarının mövcudluğu, sözsüz ki, Qəbələnin hələ e.ə. IV əsrdə böyük şəhər olduğundan xəbər verir. Çünki belə ümumşəhər əhəmiyyətli nəhəng ərzaq anbarları yalnız və yalnız böyük şəhərlərdə ola bilərdi.

**(Ardı gələn sayımızda).**

*Hüseyn Məmmədov - 100*

# Fədakar pedaqoq

Qəbələ rayonunda təhsildən söz açılan kimi Hüseyn Məmmədovun adı böyük ehtiramla çəkilir. Bu da təsadüfi deyil. Hüseyn Məmmədov uzun illər rayonun təhsil sahəsində həm vicdanla işləmiş, bir müddət isə təhsil şöbəsinə rəhbərlik etmişdir. Yüksək pedaqoji fəaliyyətinə və məharətinə, əsl insani keyfiyyətlərinə, daim insanların maariflənməsinə çalışmasına, mənəvi saflığına şərəfli qiymət kimi, Qəbələ əhalisi Hüseyn müəllimi «Müəllimlərin sərkərdəsi», «Müəllimlər müəllimi» adlandırır.

Hüseyn müəllim 1920-ci ildə Bum kəndində təhsilə, maarifə böyük qiymət verən, haqq-ədaləti sevən, bu xüsusiyyətlərinə görə kənd camaatı arasında hörmət və ehtiram sahibi olan Məlik Mahmudovun (1886-1940) ailəsində dünyaya göz açmışdır. 1923-cü ildən başlamış «Elliklə savadsızlığa qarşı» ümumxalq hərəkatına H.Məmmədov hələ məktəbdə oxuyarkən, 1931-ci ildə qoşulmuş, kəndin ağsaqqal və ağbirçəklərinə savad öyrətmişdir. 1932-1933-cü tədris ilində Bum məktəbinin yeddinci sinfini bitirən 12 yaşlı gənc Hüseyn Şəki pedaqoji texnikumuna daxil olmuş, 1936-cı ildə Ağdaş rayonunun Güvəkənd natamam orta məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. O zaman Hüseyn müəllimin 16 yaşı var idi. 1939-1940-cı dərs ilində Qəbələnin Kiçik Pirəli ibtidai məktəbinə müəllim, eyni zamanda müdir təyin edilmiş, 1940-cı ildə ordu sıralarına xidmətə çağırılmışdır. 1941-1945-ci illərdə müharibənin ilk günlərindən sonunadək ön cəbhədə Baltikyanı ölkələrin müdafiəsində, Leninqradətrafı cəbhələrdə, Finlandiya sərhədində gedən döyüşlərdə serjant, baş serjant, bölmə komandiri kimi iştirak etmiş, göstərdiyi şücaət və igidliyə görə II dərəcəli «Vətən müharibəsi» ordeni və bir sıra medallarla təltif olunmuşdur. Odudan tərxis edildikdən dərhal sonra, 1946-1947-ci tədris ilində Bum kənd orta məktəbində rus dili müəllimi işləyən Hüseyn Məmmədov 1947-ci ilin oktyabr ayında Qutqaşen Rayon Partiya Komitəsinə təlimatçı, 1948-ci ilin iyun ayından Qutqaşen Rayon Komsomol Komitəsinin birinci katibi vəzifələrinə irəli çəkilmişdir. 1951-1953-cü illərdə yenidən RPK-də təlimatçı işləmiş, 1953-cü ildə Tikanlı kənd məktəbinə rus dili müəllimi göndərilmişdir. Orada beş il işlədikdən sonra, doğma Bum kəndinə qayıdaraq 1958-1971-ci illərdə Bum kənd orta məktəbində rus dili fənnini tədris etmişdir. H.Məmmədov rayonun ictimai həyatında fəal iştirak etmiş, bu sahədəki fəaliyyətinə görə 1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. Müəllimlik peşəsinin vurğunu olan Hüseyn müəllim 1971-ci ilin oktyabrından RXTŞ-də metodkabinetin müdiri, həmkarlar təşkilatının sədri, 1976-cı ildən 1979-cu ilədək RXTŞ-nin müdiri vəzifələrində işləmişdir. H.Məmmədov təhsil şöbəsinin müdiri işlədiyi illərdə məktəblərin tikintisinə xüsusi diqqət yetirirdi. Bu illərdə Bum kəndində əvvəlcə 360 yerlik (hazırda bu binada kənd xəstəxanası yerləşir), Qəbələ şəhərində 1147 yerlik məktəb binaları istifadəyə verilmiş, Quşlar, Soltannuxa, Kiçik Pirəli, Mirzəbəyli kəndlərində orta məktəb binaları inşa edilmiş, bir sıra məktəblərdə sinif otaqlarının sayı artırılmış, fənn laboratoriyaları, əmək emalatxanaları, yeməkxanalar istifadəyə verilmişdir. Xalq təhsili sahəsində yarım əsrdən artıq fəaliyyət göstərən Hüseyn Məmmədov 1955-1960-cı illərdə öz işindən ayrılmadan Bakı Dövlət Universitetində təhsilini davam etdirmiş, Azərbaycan dili və İran filologiyası ixtisası üzrə bu elm ocağını başa vurmuşdur. Təhsil sistemindəki xidmətlərinə görə «Maarif əlaçısı» döş nişanı ilə təltif olunmuşdur.

Hüseyn Məmmədov 1990-cı ildə təqaüdə çıxdıqdan sonra belə insanlardan, ictimaiyyətdən ayrı qalmamış, rayon qəzetində gənclərin tərbiyəsi və təlimi mövzusunda dəyərli yazıları və ağsaqqal tövsiyələri ilə çıxış etmişdir: bir neçə il ərzində Bum kənd orta məktəbinin yubileyinə hazırlıq işləri ilə məşğul olmuş, mətbuatda "100 yaşlı Bum məktəbi" ("Qəbələ" qəzeti, 12.06.1997) adlı yazı da dərc etdirmiş və 1997-ci ildə həmin yubileyin keçirilməsinə nail olmuşdur. Onun 1999-cu ildə nəşr olunmuş «Bum və bumlular» adlı oçerklər kitabında Bum kəndinin tarixi, coğrafiyası, toponimləri, etnoqrafiyası, ziyalıları, din xadimləri, həkimləri, zəhmət adamları, keçmişdə baş vermiş bir sıra hadisələri, Böyük Vətən müharibəsində iştirak etmiş kənd sakinləri... haqqında maraqlı məlumatlar və Bum lətifələri toplanmışdır. Kimya elmləri namizədi Muraday Abdullayevin kitaba yazdığı geniş ön sözdən bir nümunə gətirmək yerinə düşər: "Hüseyn müəllim uzun illər əldə etdiyi pedaqoji, mənəvi təcrübədən kitabında səmərəli istifadə edir. Topluda getmiş hər bir məqalə, oçerk millətimizin yaxşı xüsusiyyətlərini göstərən nümunələrlə zəngindir. Bu yazılar, publikasiyalar böyük tərbiyəvi əhəmiyyət kəsb edir... O, bütün fəaliyyəti dövründə rayonun ictimai işlərində yaxından iştirak edib. Nizam-intizamlı, peşəsini sevən, müəllimlərə, şagirdlərə qayğı ilə yanaşan pedaqoq və rəhbər kimi tanınıb. "Bilik" cəmiyyətinin fəal üzvlərindən biri olmuş, bir neçə il isə bu təşkilata rəhbərlik etmiş, Rayon Partiya Komitəsində seminar rəhbəri işləmişdir. Bum orta məktəbinin ilk partiya təşkilatı katibi, kənd seçki komissiyasının sədri, bir neçə çağırış kənd və rayon sovetlərinin deputatı, respublika komsomolu mərkəzi komitəsinin plenum üzvü olmuşdur. Mətbuat da öz növbəsində onun dəyərli fəaliyyətinə işıq salıb. Məsələn, "Qalibiyyət"in (indi "Qəbələ") aprel 1967, avqust 1970, iyul 1986, yanvar 1992-ci il tarixli nömrələrində Hüseyn müəllimin səmərəli və qüsursuz fəaliyyətinə dair məqalələr dərc edilmişdir. Xalq arasında əsl insan kimi tanınmış mahir pedaqoq haqqında dəyərli yazılar çap edilməsi təbii haldır. Sadəcə, onu da qeyd etmək yerinə düşər ki, Hüseyn Məmmədov mətbuatı yüksək qiymətləndirən ziyalılarımızdan biri olub. Xüsusilə də övladlarının söylədiyi kimi, rayon qəzetinə xüsusi rəğbət bəsləyirdi, "Bolşevik mübarizi" (sonralar "Mübariz", "Qalibiyyət") qəzetinin, indiki "Qəbələ"nin nömrələrini XX əsrin 40-50-60-cı illərindən qalaq-qalaq səliqə ilə toplayar, illər boyu istifadə və təbliğ edərdi. Hələ o dövrdə, 1948-ci il oktyabrın 20-də "Daha işgüzar işləməli", 1949-cu il fevralın 12-də "Gənclərin siyasi təhsili ilə yaxından məşğul olmalı", 1952-ci il yanvarın 1-də "Məşğələləri yüksək səviyyədə keçirək" və onlarla digər məqalələrini Hüseyn müəllim insanlarımızı maarifləndirmək məqsədilə məhz bu qəzetin səhifələrində dərc etdirmişdi. Odur ki, 31 avqust 1967-ci il tarixli "Qalibiyyət" qəzetində getmiş "Müəllimlərin avqust müşavirəsi" adlı yazıda da deyilirdi: "...Hüseyn Məmmədov və başqa müəllimlər məktəblilər arasında dostluq və yoldaşlıq əlaqələrinin möhkəmləndirilməsi, ictimai fənlərin tədrisi, müəllimlərin fənn və siyasi biliyini artırmaq sahəsində həyata keçirilmiş tədbirlər barədə danışdılar".

Hüseyn müəllim el ağsaqqalı, böyüyə, kiçiyə, bir sözlə hamıya atalıq qayğısı ilə yanaşan vətənpərvər insan idi. Ona görə də 1990-cı ildə rayon maarif şöbəsi rəhbərliyinin, rayon ictimaiyyətinin iştirakılə keçirilmiş 70 illik yubileyində şair Tacəddin Şahdağlı ona həsr etdiyi şeirdə deyirdi:

***Səndən incimeyib bir qarışqa da***
***«Səbr» kəlməsilə düşürsən yada,***
***Arzun nə qədərdir qoca dünyada,***
***O qədər ömr eylə, Hüseyn müəllim,***
***Dayanma, şadlıq et, sevin, müəllim!***

Məmmədov Hüseyn Məlik oğlu 21 oktyabr 2002-ci il tarixdə, ömrünün 83-cü baharında dünyasını dəyişmişdir.

"Qəbələ" qəzetində dərc edilmiş, rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, müharibə və əmək veteranları təşkilatının, ağsaqqallar şurasının, Bum qəsəbə (əvvəlki kənd) inzibati-ərazi nümayəndəliyi rəhbərlərinin imzaladığı nekroloqda deyilirdi: "Gözəl, nəcib insan, qayğıkeş ata, görkəmli pedaqoq, alovlu vətənpərvər və ictimai xadim Hüseyn Məmmədovun parlaq həyatı və şərəfli ömür yolu hamımıza nümunədir. Hüseyn müəllimin nurlu çöhrəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır".

**Solmaz MƏHƏRRƏMOVA,**
**tarix elmləri doktoru, professor,**
**əməkdar mədəniyyət işçisi.**